*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.105-107*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.105-107*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.105-107*

**UOT: 159.922.2:37.016.1**
https://doi.org/10.30546/670832.2025.02.1116

# Kiçik məktəb yaşlı uşaqlarda psixi proseslərin təşəkkülündə təhsil mühitinin rolu

**Müəllif(lər):**

**Fatma İslamlı**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** IslamliFatma@nmi.edu.az
https://orcid.org/0009-0002-6580-4029

**Açar sözlər:** kiçik məktəb yaşı, psixi proseslər, təhsil mühiti, psixi inkişaf

**Annotasiya.** Kiçik məktəbyaşlı uşaqların psixi inkişafı cəmiyyətin gələcəyi üçün fundamental əhəmiyyətə sahibdir. Təhsil mühitinin bu yaş dövründəki uşaqların psixi inkişafına təsiri aktualdır, çünki erkən yaşda formalaşmağa başlayan xüsusiyyətlər gələcəkdə şəxsiyyətin və onun akademik uğurunun bünövrəsini qoyur. Bu səbəbdən effektiv təhsil mühitinin təşkili və uşaqların psixi inkişafını dəstəkləyən metodların tətbiqi mühüm araşdırma mövzusudur. Araşdırmanın məqsədi kiçik məktəbyaşlı uşaqların psixi proseslərinin formalaşmasında təhsil mühitinin rolunu və onun inkişafına təsir edən faktorları aydınlaşdırmaqdır. Eyni zamanda, uşaqların bacarıqlarına təsir edən əsas təhsil mühiti amillərini təhlil edərək, uşaqların psixi inkişafını dəstəkləyən effektiv yanaşmaları üzə çıxarmaq tədqiqatın əsas məqsədidir.

Araşdırmanın daha dəqiq və elmi əsaslı olması üçün məqalədə teorik təhlil, müşahidə, sorğu və müsahibə metodlarından istifadə edilmişdir. Alınan nəticələrə əsasən qeyd etmək olar ki, təhsil mühiti kiçik məktəb yaşlı uşaqların psixi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Həmçinin müşahidələr göstərir ki, stresli və motivasiyasız təhsil mühiti uşaqlarda özgüvən azlığı, idrak aktivliyinin olmaması və emosional çətinliklərə səbəb ola bilər. Sorğu və müsahibə əsasında əldə edilən məlumatlar göstərir ki, valideyn və müəllimlərin birgə əməkdaşlığı uşaqların psixi proseslərinin inkişafını daha da gücləndirir. Psixoloji və pedaqoji yanaşmaların təhlili gələcək tədqiqatlar üçün baza rolunu oynayır.

**Author(s):**

**Fatma Islamli**
Nakhchivan Teachers Institute
Teacher
**E-mail:** IslamliFatma@nmi.edu.az
https://orcid.org/0009-0002-6580-4029

**Key words:** primary school age, mental processes, educational medium, psychological development

## The role of the educational environment in the organization of mental processes in young school-aged children

**Abstract.** The mental development of younger school children is of fundamental importance for the future of society. The influence of the educational medium on the psychological development of children at this age is actual, as characteristics formed in early stages lay the foundation of personality and his academic success in future. For this reason, the organization of an effective educational medium and the implementation of methods that support children's mental development is an important subject of research. The objective of this study is to clarify the role of the educational medium in the formation of mental processes on younger school children and to identify the factors influencing this development. At the same time, by analyzing the main educational medium factors affecting children's abilities, the study aims to reveal effective approaches that support children's psychological development.

To ensure the accuracy and scientific validity of the research, theoretical analysis, observation, survey and interview methods were used. Due to the obtained results, it can be stated that, the educational medium has a significant impact on the mental development of younger school children. Observations show that, stressful and unmotivating educational medium can cause to lack of self-confidence, reduced cognitive activity and emotional difficulties in children. Information obtained through surveys and interviews demonstrate that, collaboration between parents and teachers strengthens the development of children's mental processes. The analysis of psychological and pedagogical approaches provides a basis for future research.

**Автор(ы):**

**Фатма Исламли**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** IslamliFatma@nmi.edu.az
https://orcid.org/0009-0002-6580-4029

**Ключевые слова:** младший школьный возраст, психические процессы, образовательная среда, психическое развитие

## Роль образовательной среды в организации психических процессов у детей младшего школьного возраста

Аннотация. Психическое развитие детей младшего школьного возраста имеет фундаментальное значение для будущего общества. Влияние образовательной среды на психическое развитие детей в этом возрасте является актуальной проблемой, поскольку особенности, формирующиеся в раннем возрасте, закладывают основу личности и её академических достижений в будущем. Поэтому организация эффективной образовательной среды и применение методов, поддерживающих психическое развитие детей, являются важной темой исследования. Целью исследования является выяснение роли образовательной среды в формировании психических процессов у детей младшего школьного возраста и факторов, влияющих на их развитие.

Одновременно основной задачей исследования является выявление эффективных подходов, поддерживающих психическое развитие детей, через анализ ключевых факторов образовательной среды, влияющих на их способности. Для повышения точности и научной обоснованности исследования в статье использованы методы теоретического анализа, наблюдения, опроса и интервью. На основании полученных результатов можно отметить, что образовательная среда оказывает значительное влияние на психическое развитие детей младшего школьного возраста. Кроме того, наблюдения показывают, что стрессовая и демотивирующая образовательная среда может приводить к снижению самооценки, отсутствию когнитивной активности и возникновению эмоциональных трудностей у детей. Данные, полученные на основе опросов и интервью, свидетельствуют о том, что совместная работа родителей и педагогов способствует более эффективному развитию психических процессов у детей. Анализ психологических и педагогических подходов служит базой для будущих исследований.

**Giriş**. Kiçik məktəb yaşı dövrü diqqət, yaddaş, təfəkkür, qavrayış və təsəvvürün düzgün və məqsədyönlü formalaşması və intensiv inkişafı dövrüdür. Bu mərhələdə uşaqların idraki və emosional sferasında baş verən dəyişikliklər onları əhatə edən sosial və pedaqoji mühitdən – məktəb və müəllimlərdən, eyni zamanda təlim şəraitindən ciddi şəkildə asılıdır. Seçilən bu mövzu da müasir pedaqoji-psixoloji tədqiqatlarda xüsusi aktuallıq kəsb edir, çünki təhsil mühitinin uşaq inkişafına olan təsiri həm nəzəri, həm də praktik baxımdan dərin araşdırma tələb edir.

Kiçik məktəb yaşlı uşaqlarda daxili və xarici amillərin təsiri altında psixi proseslər formalaşmağa başlayır. Bütün amillər uşağın emosional, intellektual və fiziki inkişafına təsir edir. Məktəb mühiti psixi proseslərin inkişafına ən əsas təsir göstərən amillərdəndir. Çünki müəllimlər tərəfindən tətbiq olunan tədris metodları uşaqların psixi proseslərini gücləndirməyə və formalaşdırmağa xidmət edir. Təhsil mühiti uşaqların intellektual inkişafı və sistemli şəkildə bilik əldə etməsi üçün baza rolunu oynayır. Bu dövrdə öyrədici oyunlar, praktik fəaliyyətlər hesabına uşaqda qavrayış və təfəkkür xüsusiyyətləri dərinləşir. Müəllimlərin uşaqları motivasiya etməsi, onlara fərdi yanaşması, təlim prosesində effektiv üsullardan istifadə etməsi psixi proseslərin inkişafına müsbət təsir göstərir. Bu mərhələdə müəllim və valideynlərin birgə əməkdaşlığı uşağın inkişafını dəstəkləyən əsas faktorlardandır.

Kiçik məktəb yaşı dövründə psixi proseslərin inkişafında əsas hərəkətverici qüvvələrdən biri də təhsil mühitidir. Məktəb, uşaqların bilik, bacarıq və sosial münasibətlərini inkişaf etdirən, onları şəxsiyyət kimi formalaşdıran vacib bir sosial məkan olmaqla, eyni zamanda onların psixi proseslərinin təşəkkülünə də hərtərəfli təsir göstərir. Belə ki, təhsil mühiti hesabına uşaqlar bilikləri mərhələli şəkildə mənimsəyib öz yaddaş, düşüncə, diqqət və s. xüsusiyyətlərini inkişaf etdirmək imkanı əldə edir. Bundan başqa təhsil mühiti hesabına uşaqlarda müəyyən rejim və qaydaların tətbiqi onlarda özünüidarəetmə, iradi diqqət vərdişlərini formalaşdırır.

Məktəbə daxil olmuş uşaqların tələbat və maraqları olduqca müxtəlif və rəngarəng xarakter daşıyır. Şagirdin müvəffəqiyyətlə oxumasına, biliklərə yiyələnməsinə müəllim yaxından kömək göstərdikdə şagird bu sahədəki tələbatını ödəyə bilir. Müəllim şagirdin gözü qarşısında ətraf varlığın zənginliklərini, bir növ nümayiş etdirir: onu yeni-yeni cisim və hadisələrlə tanış edir. Bu da uşaqda idrak, təlim maraqlarının inkişafına səbəb olur [2, s.32].

Mövzunun müəyyənləşdirilməsi və seçilmə səbəbi. Mövzunun seçilmə zərurəti oradan irəli gəlir ki, təhsil müəssisələrində uşaqlara yönəlmiş fərdi yanaşma, psixoloji dəstək və mühitin uyğunlaşması bəzən yetərli olmur, bu da öz növbəsində uşağın psixi proseslərinin tam inkişafına mane ola bilər.

**Tədqiqat fərziyyəsi.** Əgər kiçik yaşlı məktəbli uşaqların təhsil aldığı tədris mühiti onların yaş və fərdi xüsusiyyətlərinə uyğunlaşdırılarsa, bu zaman onların psixi proseslərinin inkişafı daha keyfiyyətli və sürətli şəkildə baş verər.

**Tədqiqatın məqsədi.** Kiçik məktəb yaşlı uşaqlarda psixi proseslərin formalaşmasında təhsil mühitinin rolunu araşdırmaq, müsbət və mənfi amilləri müəyyənləşdirmək və effektiv mühit modelini təklif etmək tədqiqatın əsas məqsədlərindəndir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın vəzifələri isə bu yaş dövründəki uşaqların psixi proseslərinin nəzəri əsaslarını təhlil etmək; təhsil mühitinin uşağa təsiri mexanizmlərini araşdırmaq; tədqiqat nəticəsində praktik tövsiyələr hazırlamaq və optimal təhsil mühiti modeli formalaşdırmaqdan ibarətdir.

**Material və metodlar.** Tədqiqatın aparılmasında həm nəzəri, həm də empirik materiallardan istifadə olunmuşdur. Nəzəri materiallar dedikdə, pedaqogika və psixologiya sahəsində tanınmış yerli və xarici mütəxəssislərin elmi əsərləri, dərsliklər, məqalələr və konfrans materialları nəzərdə tutulmuşdur. Empirik materiallar isə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bəzi məktəblərin ibtidai siniflərində təhsil alan 6-10 yaş arası şagirdlər üzərində aparılmış müşahidə və diaqnostik yoxlamalar nəticəsində əldə edilmişdir. Uşaqların məktəb mühitində davranışları, dərs prosesində diqqət və yaddaş funksiyalarının fəallığı müşahidə edilmişdir. Şagirdlər və onların müəllimləri ilə fərdi və qrup şəklində söhbətlər aparılmış, onların fikirləri öyrənilmişdir. Toplanan məlumatlar sistemləşdirilmiş, təhlil olunaraq ümumiləşdirilmişdir.

**Nəticə və müzakirə**. Məktəbdə şagirdlərin diqqətinə, hafizəsinə, təfəkkürünə, iradəsinə sistemli proqram tələbləri verilir. Bu psixi prosesləri inkişaf etdirmədən onların həmin tələbləri yerinə yetirəcəklərinə ümid bəsləmək mümkün deyil. Bütün bunlar təmin olunduqda uşaq məktəbə oxumaq, biliklərə yiyələnmək həvəsi ilə gəlir, kiçicik müvəffəqiyyəti ona sevinc gətirir [1, s.62]. Kiçik məktəb yaşı dövründə uşaqların təfəkkürü, təxəyyülü, diqqəti, yaddaşı və digər psixi prosesləri inkişaf etməkdədir. Buna görə də bu dövr uşağın həyatında, gələcəkdə formalaşmasında olduqca əhəmiyyət kəsb edən bir mərhələdir. Bu inkişafda əsas hərəkətverici qüvvələrdən başlıcası məktəb mühiti və yeni sosial münasibətlərdir. Uşaqlar məhz bu yaşda ətraf aləmi daha dərindən qavrayır, öyrənməyə həvəs göstərir, iradi keyfiyyətlərini formalaşdırmağa başlayırlar. Uşağın gələcəkdə intellektual və emosional bir şəxs kimi yetişməsində psixi proseslərin təşəkkülü olduqca əhəmiyyətlidir. Bu səbəbdən, kiçik məktəbyaşlı uşaqlarda psixi proseslərin düzgün formalaşdırılması əsas pedaqoji-psixoloji tədqiqat istiqamətlərindəndir. Bu dövrdə uşaqlarda psixi proseslərin xüsusiyyətləri, onların formalaşmasına təsir edən amillər və qarşıya çıxan problemlərin həllinə düzgün yanaşma mühüm nüanslardandır.

Tədqiqatın nəticələri L.S.Vıqotski, A.N. Leontyev, V.V.Davıdov kimi alimlərin fikirlərini təsdiqləyir. Onlar da göstərmişdirlər ki, uşağın idraki inkişafı yalnız onun bioloji yetkinliyi ilə deyil, sosial-pedaqoji mühitlə də sıx bağlıdır. Eyni zamanda yerli tədqiqatçı N.Ə.Zeynalovanın ibtidai siniflərdə idraki bacarıqların inkişafı ilə bağlı araşdırmalarında da təhsil mühitinin təsiri əsas faktor kimi qeyd edilir. Bu müqayisələr göstərir ki, tədqiqatın nəticələri ilə mövcud elmi yanaşmalar uzlaşır.

**Yekun nəticə.** Bütün bu deyilənləri nəzərə alaraq qeyd edə bilərik:

• kiçik məktəb yaşlı uşaqların psixi proseslərinin təşəkkülü onların gələcəkdə təhsil və sosial adaptasiyalarının bərpasında xüsusi rol oynayır. Eləcə də, psixi proseslərin inkişafı bu mərhələdə uşaqların yaddaş, diqqət, təfəkkür və təxəyyül kimi xüsusiyyətlərinin təşəkkülündə, uşağın məktəbdə uğur qazanmasında və sağlam şəxsiyyət kimi formalaşmasında xüsusi rol oynayır;

• uşaqların psixi inkişafını dəstəkləyən təhsil mühiti düzgün təşkil olunmalı, ailə və məktəb arasında sıx əməkdaşlıq aparılmalı, fərdi yanaşma və innovativ texnologiyalar məqsədyönlü tətbiq edilməlidir.

Yekun olaraq qeyd etmək olar ki, müasir texnologiyalar və tədris metodlarının tətbiqi uşaqların psixi proseslərinin inkişafı baxımından olduqca əhəmiyyət kəsb edir. Həmçinin texnologiyaların həddindən artıq istifadəsi balanslı yanaşma tələb edir. Beləliklə, kiçik yaşlı məktəblilərin psixi inkişafına dəstək göstərilməsi üçün ailə, məktəb, cəmiyyətin birgə əməkdaşlığı vacibdir. Yalnız bu yolla gələcəkdə özünə inamlı, harmonik və yaradıcı fərdlərin yetişdirilməsinə nail olmaq olar.

## Ədəbiyyat

1. Kərimov, Y. Uşaq məktəbə gedir / Y.Kərimov. – Bakı, – 2002. –144 s.
2. Qədirov, Ə. Kiçik məktəb yaşlı uşaqlarda mücərrəd təfəkkürün inkişafı / Ə.Qədirov. – 1961. – 103 s.
3. Qədirov, Ə. Uşaqlarda idrak proseslərinin inkişafı. / Ə.Qədirov. – Bakı, – 1969. – 99 s.
4. Qədirov, Ə. Yaş psixologiyası / Ə.Qədirov, İ.Məmmədov. – Bakı, – 1986. – 194 s.

*Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Səbinə Aslanova tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 26.08.2025, son daxilolma – 23.09.2025, qəbulolunma – 05.12.2025